# Cənnət meyvəsinin şəninə...

Şəhərin mərkəzində tədbirin rəsmi açılışından sonra nara aid milli musiqi, muğam və folklor nümunələri, müxtəlif müsabiqələr, rəngarəng sərgilər, Azərbaycan mətbəxi və nar məhsullarının bütün nümunələri təqdim edilib. Həm yerli əhalinin, həm də ölkəmizə gələn qonaqların böyük marağına səbəb olan Nar festivalı Azərbaycanın dünyada təbliğinə xidmət göstərir, yerli və xarici media tərəfindən geniş işıqlandırılır. Narçılıq iqtisadi cəhətdən gəlirli sahədir, insan sağlamlığı üçün çox əhəmiyyətlidir. Bu il Göyçay bağlarında 50 min tona yaxın nar yetişdirilib, məhsulun yarıdan çoxu Rusiya, Ukrayna, Gürcüstan və digər ölkələrə ixrac edilib.










Cənnət meyvəsi adlandırılan narın eramızdan əvvəl Qədim Yunanıstanın Karfagen vilayətində becərildiyi barədə tarixi məlumatlar var. Amma Azərbaycan da bu qiymətli məhsulun vətəni sayılır. Ölkəmizdə çox qədimlərdən nar bağları salınıb, həvəslə əkilib-becərilib, başqa ölkələrə göndərilib, son illərdə isə şəninə bayramlar təşkil edilib. "Nar bayramı" ilk dəfə 2006-cı il noyabrın 3-də, Mədəniyyət və Turizm Nazirliyi və Göyçay İcra Hakimiyyətinin birgə təşəbbüsü ilə reallaşıb. Builki – sayca XII festival isə xeyli fərqli və yeni biçimdə idi: əlamətdar günlə əlaqədar müxtəlif turizm şirkətləri tərəfindən Bakı şəhərindən Göyçaya endirimli qiymətlərlə tur-aksiyalar təşkil olunmuşdu. Turistlər rahat nəqliyyat vasitələri ilə rayonun gəzməli-görməli yerlərinə səyahət edib, bayram tədbirinə qatılıblar; satış-yarmarkalarda müxtəlif sortdan keyfiyyətli meyvənin və nardan hazırlanan məhsulların dadına baxıblar, onları almaq imkanı qazanıblar.

Meydanda təşkil olunan kitab sərgisi, nümayiş etdirilən əl işləri, sənət nümunələri maraqla izlənib, idmançıların, rəqs və musiqi qruplarının, xor kollektivlərinin çıxışları alqışlarla qarşılanıb. Nar mövzusunda bədii kompozisiyalar, milli folklor nümunələri, əyləncəli müsabiqələr təqdim olunub. Qonaqlar nar şirəsinin, nar şərabının, nar mürəbbəsinin, nardançanın, müxtəlif sortdan giləlnmiş narın dadına baxıblar.

Həmçinin "Nar" abidəsinin açılışı, "Ən gözəl nar qızı" müsabiqəsi keçirilib, qaliblərə mükafatlar verilib. Yerli və xarici qonaqların rayonun nar emalı müəssisələrinə səfəri baş tutub. Tədbirin ilk günü ölkəmizin tanınmış incəsənət ustalarının çıxışları və atəşfəşanlıqla yekunlaşıb.

Ertəsi gün isə kəndli fermerlər tərəfindən yetişdirilən müxtəlif nar sortları və onlardan hazırlanan məhsulların satış-yarmarkası təşkil olunub. "Nar kuboku" uğrunda futbol yarışı, "Ən böyük nar" müsabiqəsi keçirilib. ❖

Azər Əlihüseynov